Azərbaycan.- 2021.- 3 aprel. S. 6.

# Zəngilanda bir dağ var

Faiq Qalayçiyev bir il öncə yaşadığı Balakən rayonunun Kortala kəndindən hərbi xidmətə çağırılmışdı. “Ana qurban boyuna, heç vaxt məni başıaşağı etməmisən, inanıram ki, yenə də belə olacaq” deyib anası onu yola salmışdı. O isə “Ana, sən mənimlə fəxr edəcəksən, qürur duyacaqsan, narahat olma” söyləmişdi. Qonşulara da “Daha gecələr rahat yatın, mən sizi qorumağa gedirəm” demişdi.



Rəqsi də sevirdi Faiq, gözəl geyinməyi də, könülləri xoş sözlərlə sevindirməyi də. Evləri Kortalanın Beçağar adlanan hissəsində yerləşən Faiq Kortalaya gələndə kortalalılar, Kortaladan Beçağara gedəndə beçağarlılar sevinərdi və ətrafına yığılıb həmsöhbət olmağa can atardılar.

Böyüdükcə hörməti daha da artan Faiqin söhbətləri də, davranışı da, rəftarı da fərqli idi. O, ətrafındakılarla ünsiyyət qurmağı bacarırdı.

Anası Adilə xanım həyat yoldaşı İsrafil rəhmətə gedəndən sonra üç uşağı təkbaşına, min bir əziyyətlə böyüdüb ərsəyə çatdırmış, onları bacardığı qədər korluq çəkməyə qoymamışdı. Balalarının atasız olduqlarını hiss etməmələri üçün bütün əziyyətlərə sinə gərmişdi Adilə xanım. Bununla belə, kişi qeyrətli xanım övladlarına nümunəvi tərbiyə vermiş, vətəni sevməyi, böyük-kiçiyin yerini bilməyi öyrətmişdi.

Yəqin, elə həm də bu səbəbdən ordu sıralarında xidmət edən Faiq torpaqlarımızın azadlığı uğrunda gedən Vətən savaşında cəsarətlə vuruşdu, qorxunun nə olduğunu bilmədi. Ancaq nə edəsən ki, mənfur düşmən gülləsi onu aramızdan tez apardı.

Dəfn günü bir mərasim idi elə bil. Bu hörməti özü qazanmışdı - Vətən və yurd sevgisi ilə. O, indi yoxdur, amma əvəzində Zəngilanda bir dağ var. Onun da adı Faiqdir. Döyüş yoldaşları həmin dağa bu adı şəhid Faiqin şərəfinə veriblər.

*Bu dağlar ulu dağlar,*
*Zirvəsi qarlı dağlar,*
*Biz Faiqi itirdik,*
*Sən yaşa, ulu dağlar.*

Faiq ölmədi, ölməzlik zirvəsinə yüksəldi. O, həmişə ürəyimizdədir. Çünki Vətən uğrunda şəhid olub, döyüş yoldaşları ilə birlikdə Azərbaycanı bütövləşdirib, Qarabağı Azərbaycana qovuşdurub.

Bu gün anası da, bacısı da, qardaşı da Faiqin xiffətini çox çəkirlər. Lakin başları ucadır. Çünki Faiq kimi bir övladın doğmalarıdırlar. Bu gün onların tam haqları var ki, ölümündən sonra “Vətən uğrunda”, “İgidliyə görə” medalları və “Qarabağ ordeni” ilə təltif olunan Faiqlə fəxr etsinlər.

***Samrat QURBANƏLİYEVA,***
***Balakən rayonu,***
***Kortala kəndi***